**Avropa Komissiyasının Tədqiqat və Texnoloji İnkişaf üzrə 7-ci Çərçivə Proqramı (FP-7) hüdudlarında Elmin İnkişafı Fondunun qoşulduğu Genişləndirilmiş Qara Dəniz Regionunda birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi üzrə müştərək pilot müsabiqəsi (BS-ERA.NET) http://bs-era.net/**

**Nəticələr haqqında elan**

Elmin İnkişafı Fondunun qoşulduğu bu beynəlxalq qrant müsabiqəsində Azərbaycanın təmsilçiləri (8 nəfər) layihə koordinatoru (2 nəfər) və icraçı (6 nəfər) qismində iştirak etmişdir. 11 ölkədən olan 55 layihə sırasından 11 layihə qalib gəlmişdir. Qalib layihələrin ölkələr üzrə statistikası aşağıdakı kimidir:

| | |
|---|---|
| Almaniya | 2 |
| Azərbaycan | 1 |
| Bolqarıstan | 1 |
| Rumıniya | 4 |
| Yunanıstan | 3 |

Koordinatoru Azərbaycandan olan qalib layihə haqqında qısa məlumat:

**Layihənin adı** – "Qara Dəniz Regionunda neft və qaz nəqlində istifadə olunan maşın və mexanizmlərin etibarlılığı və davamlılığı"

**Layihənin məbləği –** 194 000 avro (bu məbləğin 38 450 avrosu Elmin İnkişafı Fondu tərəfindən maliyyələşdirilir, İNTAS proqramı isə Azərbaycan tərəfi üçün 11 550 avro ayırır)

**Layihənin ERA.NET pilot qrant müsabiqəsi üzrə kodu** – RDMMOGT

**Layihənin ERA.NET pilot qrant müsabiqəsi üzrə istiqaməti** – ENV- 1.1 Mineral ehtiyatların istismarı və nəqli - ətraf mühitə təsir

**Layihə rəhbəri** – texnika elmləri doktoru, professor Valeh Baxşəliyev, Azərbaycan Texniki Universiteti, "Nəzəri mexanika" kafedrası

**Layihənin Azərbaycandan olan iştirakçıları –**

1. Fərhad Aslanzadə, Azərbaycan Texniki Universiteti
2. İsmayıl İsmayıl, Azərbaycan Texniki Universiteti
3. Feyruz Həsənov, BP-Azərbaycan

**Layihənin partnyorları** –

1. Professor Proppe Carsten, Karlsruhe Texnologiya İnstitutu, Almaniya
2. Professor Davitashvili Nodar, Gürcüstan Texniki Universiteti, Gürcüstan
3. Professor Erdal Celik, Dokuz Eylül Universiteti, Türkiyə

**Elmin İnkişafı Fondunun icraçı direksiyası**